

# HEYDƏR ƏLİYEVİN

*müdrik kəlamlarından*

**Söz, Düşüncə, Fikir Dünyası və Tövsiyələri**

Nəsib Abid

# HEYDƏR ƏLİYEVİN
## *müdrik kəlamlarından*

Söz, Düşüncə, Fikir Dünyası və Tövsiyələri

Bakı - 2025

**Redaktor: Nəcibə İlkin**
*Şair-publisist, yazıçı, AYB-nin,*
*AJB-nin üzvü, Prezident mükafatçısı.*
*"Azad Qələm" jurnalının baş redaktoru*

*Nəsib Abid,*
*"HEYDƏR ƏLİYEVİN - müdrik kəlamlarından"*
*Bakı, «İMZA» nəşrirlər evi, 2025, 36 səh.*

*Bu kitab Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunur.*
*Kitabda Ümummilli Liderimizin müdrik kəlamları dərc olunub.*

**İSBN 978-9952-37-230-4**

**© Nəsib Abid - 2025**



# İçindəkilər

**I Bölüm**
Elm, təhsil və peşə haqqında ........ 4

**II Bölüm**
Vətən, dövlət və ölkə haqqında ........ 7

**III Bölüm**
Dil, tarix və xalq haqqında ........ 11

**IV Bölüm**
Mənəviyyat, dostluq və gənclik haqqında ........ 14

**V Bölüm**
Qanun, ədalət, müharibə və sülh haqqında ........ 18

**VI Bölüm**
Bilik, zəhmət və iş haqqında ........ 21

**VII Bölüm**
Təbiət, cəmiyyət və həyat haqqında ........ 23

**VIII Bölüm**
Sahibkarlıq və iqtisadiyyat haqqında ........ 26

**IX Bölüm**
Din, vicdan və düşüncə haqqında ........ 27

**X Bölüm**
Arzu, istək və maraq haqqında ........ 31

# I Bölüm

## Elm, təhsil və peşə haqqında

Hər bir gənc üçün istədiyi, arzu etdiyi sənət üzrə, ixtisas üzrə ali təhsil almaq böyük hadisədir və bu təhsili başa çatdırmaq bir xoşbəxtlikdir.

**(12-ci cild, s. 113)**

Azərbaycandan kənara – başqa ölkələrə təhsil almağa gedən gənclərə xüsusi tövsiyyəm ondan ibarətdir ki, siz hansı ölkədə olursunuzsa – olun, birinci vəzifəniz yüksək təhsil almaqdan, o təhsil ocağının bütün imkanlarından istifadə edib, hərtərəfli, hazırlıqlı bir vətəndaş olmaqdan ibarətdir.

**(12-ci cild, s. 121)**

Müəllimlik sənəti şərəfli bir sənətdir.

**(12-ci cild, s. 128)**

Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, bilikli, zəkalı, tərbiyəli vətənpərvər vətəndaşlar hazırlayır. Şübhəsiz ki, birinci növbədə müəllim özü bu xüsusiyyətlə malik olmalıdır, daimi özünü də təkmilləşdirməlidir, öz üzərində işləməlidir.

**(12-ci cild, s. 141)**





Öz üzərində işləməyən müəllim yaxşı müəllim ola bilməz.

**(12-ci cild, s. 141)**

Cəmiyyətdə həkim peşəsi ən mötəbər, ən hörmətli peşədir. Özünü həkimlik, təbiblik peşəsinə həsr edən insanlar xoşbəxt insanlardır.

**(12-ci cild, s. 171)**

Həkimlik peşəsi öz xalqına, sənətinə yüksək sədaqət tələb edən bir işdir. Heç bir peşədə "Hippokrat andı" kimi and yoxdur. Hippokrat andı içən hər bir həkim o anda sona qədər sadiq olmalıdır.

**(12-ci cild, s. 172)**

Dövri-qədimdən bütün dövlətlərin tarixində diplomat peşəsi ən hörmətli, ən şərəfli peşədir. Keçmiş tarixə baxsaq, hansı ölkənin tarixini götürsək, diplomatik işlərə hər ölkədə ən yuxarı təbəqədən, ən hazırlıqlı, bilikli, savadlı, ən zəkalı adamları təyin edirdilər.

**(15-ci cild, s. 24)**

Kinemotoqraf əməyi çox mürəkkəb, ağırdır. Ümumiyyətlə, artistin əməyi çox ağırdır.

**(15-ci cild, s. 253)**

Polis peşəsi ağır peşədir. O bir tərəfdən

yüksək vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, elm, təhsil və təcrübə tələb edir.

**(16-cı cild, s. 168)**

Polis peşəsinə öz həyatını sərf edən insan bir çox xüsusi keyfiyyətlərə malik olmalıdır. Polis əməkdaşı birinci növbədə ölkəsinin dövlətinə, Konstitusiyasına, qanunlarına tam sadiq olmalıdır.

**(16-cı cild, s. 173)**

Polis əməkdaşı bilikli, öz sahəsində yüksək təhsilə, yaxşı təcrübəyə malik, iradəli, cəsarətli, qorxmaz olmalıdır. Polis əməkdaşı saf mənəviyyətə malik olmalıdır.

**(16-cı cild, s. 173)**





## II Bölüm

## Vətən, dövlət və ölkə haqqında

Polis əməkdaşı vətəninə, torpağına hədsiz sədaqətli və istənilən vaxt öz vəzifəsini yerinə yetirərək həyatını belə qurban verməyə hazır olmalıdır.

**(16-cı cild, s. 173)**

Xalqın taleyi, dövlətin taleyi, ölkənin taleyi subyektiv hislərdən və bütün şəxsi münasibətlərdən yüksəkdə durmalıdır.

**(16-cı cild, s. 221)**

Bizim üçün tarixi bir amil var – Azərbaycançılıq.

**(16-cı cild, s. 414)**

Heç bir ölkədə heç bir zaman nailiyyət qurbansız, itkisiz hasil olmur.

**(15-ci cild, s. 381)**

Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba yurdudur.

**(15-ci cild, s. 415)**

Demokratiya olan yerdə müxalifət olmalıdır.

**(12-ci cild, s. 92)**

Müxalifət iqtidara qarşı öz fikrini bildirməlidir. Amma bu, doğru-düzgün, ədalətli olmalıdır, böhtan yox! Böhtan yox, yalan yox, uydurma yox, saxtalaşdırma yox!

**(12-ci cild, s. 93)**

Hesab edirik ki, hər bir ölkənin xarici və daxili siyasəti o ölkənin özünün işidir və başqa ölkələr onun işinə qarışmamalıdır. Bunun özü müstəqillik üçün lazım olan bir şərtdir. Ancaq dediyim kimi, hər bir ölkənin qanuni adət-ənənəsini bilmək lazımdır.

**(12-ci cild, s. 126)**

XX əsrin sonunda Sovetlər İttifaqının dağılması bəşər tarixi üçün çox böyük hadisədir. Bu Azərbaycan xalqı üçün də böyük hadisədir.

**(12-ci cild, s. 218)**

Hər hansı imperiya ambisiyalarının hansısa dövlətin hegemonluğunun istisna edilməsi zəruridir.

**(12-ci cild, s. 377)**

Dövlət işində çalışan şəxslər, xüsusən yüksək vəzifəli şəxslər bilməlidirlər ki, vəzifəsindən sui-istifadə edən adam həm öz işinə, həm də dövlətin işinə böyük zərbə vurur.

**(15-ci cild, s. 15)**





Ana sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də "Ana Vətən" deyirik, torpağa "Ana torpaq" deyirik.

**(15-ci cild, s. 39)**

Hər bir insan üçün Vətəndən əziz heç bir şey yoxdur.

**(15-ci cild, s. 39)**

Hər bir insan üçün onun doğma torpağından qiymətli heç bir şey yoxdur.

**(15-ci cild, s. 39)**

Türk xalqları insanlığın min illər boyu yaratdığı sivilizasiyaya əvəzsiz tarixi töhfələr veriblər.

**(15-ci cild, s. 55)**

Vətən hər bir adam üçün onun evidir, kəndidir, torpağıdır, ölkəsidir. Azərbaycan hansı ideologiya, hansı dövlət quruluşu çərçivəsində olmasına baxmayaraq, doğma vətənimizdir. Min ildən bundan öncə də vətənimiz olubdur.

**(15-ci cild, s. 101)**

Dövlətlər arasındakı münasibətlər subyektiv hisslər əsasında qurulmamalıdır və bir liderin digərinə şəxsi münasibətindən tam asılı ola bilməz.

**(15-ci cild, s. 161)**

Respublikaya həqiqətən rəhbərlik etmək üçün təkcə istək, iddia azdır. Gərək biləsən, - sənin biliyin, bacarığın, elmin, savadın buna çatır yoxsa yox? İkincisi, bunun üçün sənin iradən, xarakterin varmı? Üçüncüsü, sənin təcrübən, idarəçilik təcrübən varmı?

**(15-ci cild, s. 180)**

Cəmiyyətdə siyasiləşmə proseslərinin kifayət qədər yayılmağı səbəbindən bir çox siyasi partiyalar cəmiyyətin yalnız məhdud dairələrinin siyasi baxışlarını ifadə edirlər.

**(16-cı cild, s. 79)**





## III Bölüm

## Dil, tarix və xalq haqqında

Gənclərimiz nə qədər çox dil bilsə bir o qədər zəngin dünya görüşünə malik olacaqlar. Bu müasir dünyanın tələbləridir.

**(12-ci cild, s. 127)**

Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz.

**(12-ci cild, s. 127)**

Ümummilli dəyərlər, ümummilli mənafelər uğrunda bütün xalq, müxalifət də, iqtidar da birləşməlidir.

**(12-ci cild, s. 302)**

Hər bir millətin gözəlliyini nümayiş etdirən qadın olur.

**(15-ci cild, s. 44)**

Millətin gözəlliyi hər bir insanın gözəlliyindən meydana gəlir.

**(15-ci cild, s. 44)**

Xalqımız şeri, ədəbiyyatı sevən xalqdır. Eyni zamanda şerin, ədəbiyyatın hər bir insanın həyatında və xalqımızın, cəmiyyətimizin, mil-

lətimizin həyatında daim böyük rolu olmuşdur.

**(15-ci cild, s. 98)**

Tarix tarixdir. Onun hər bir mərhələsinin, hər bir səhifəsinin özünəməxsus mənası, müsbət və mənfi cəhətləri vardır.

**(15-ci cild, s. 99)**

Harada baş verməsindən və nə ilə nəticələnməsindən asılı olmayaraq bütün xalq hərəkatlarının və inqilabların eyni səciyyəvi xüsusiyyəti var, - onların hamısı haqq və ədalət naminə ediliblər.

**(15-ci cild, s. 206)**

Elə vaxt gəlir ki, yenidən tarixlə təmasda olursan.

**(15-ci cild, s. 249)**

Türk dünyası çox görkəmli şəxsiyyətlərlə zəngindir.

**(15-ci cild, s. 313)**

Xalq ordunu daim sevməli, ona kömək etməlidir.

**(16-cı cild, s. 94)**

Millətin milliliyini saxlayan onun dilidir.

**(16-cı cild, s. 411)**





Millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz.

Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunlar hamısı bir-biri ilə bağlıdır.

**(16-cı cild, s. 412)**

## IV Bölüm

## Mənəviyyat, dostluq və gənclik haqqında

Gənclər bəzən gələcəklərini o qədər də dərk edə bilmirlər. Ancaq mən, bütün çətin dövrləri yaşamış bir şəxs kimi, sizə öz həyat təcrübəmdən və gördüklərimə əsasən tövsiyyə edirəm ki, həyatınızda heç bir günü itirməyin. Ali məktəblərdə hər bir gün sizin üçün vacib və əhəmiyyətlidir. Ancaq itirilən günü siz heç vaxt geri qaytara bilməyəcəksiniz.

**(12-ci cild, s. 117)**

Sülh dövlətlərin siyasəti ilə sıx əlaqədə olmaqla yanaşı, həmçinin və bəlkə də hər şeydən əvvəl elm, təhsil və mədəniyyət məsələsdir.

**(12-ci cild, s. 149)**

Uşaqlar bəşəriyyətin gələcəyidir. Hər bir ölkədə uşaqların xüsusi yeri vardır.

**(12-ci cild, s. 167)**

Qadın çox ülvi bir məfhumdur. Qadına hörmət hər bir insanın ən yüksək mənəvi keyfiyyətə malik olmasını göstərir.

**(15-ci cild, s. 39)**

Hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur.

**(15-ci cild, s. 39)**





Ana həyatda hər bir şeyin başlanğıcıdır. Ana vətəni, ölkəni qorumaq üçün əsgər böyüdür, igidlər, qəhrəmanlar böyüdür.

**(15-ci cild, s. 40)**

Hər bir ailənin səadəti, əmin-amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən çox asılıdır.

**(15-ci cild, s. 40)**

Analığa nail olan hər bir qadın dünyada ən xoşbəxt insandır.

**(15-ci cild, s. 40)**

Azadlıq yolunda özünü qurban vermiş şəhidlərimizin fədakarlığı xalqımızın qəlbində daim yaşayacaq, gələcək nəsillər üçün qəhrəmanlıq məktəbi olacaqdır.

**(15-ci cild, s. 131)**

Yüksək səviyyəli siyasətçilər doğrudan da özü üçün yaşamırlar.

**(15-ci cild, s. 155)**

Qadına hörmət hər bir millətin başıucalığıdır. Bizim millətimizin tarixi ənənələri həmişə qadınlara hörmət etməyi tövsiyyə etmişdir.

**(15-ci cild, s. 238)**

Azərbaycanlı həmişə ən yaxşı nə varsa qonağa verir.

**(15-ci cild, s. 249)**

Bəşəriyyəti faşizmdən xilas etmək tarixi bir qəhrəmanlıq nümunəsidir.

**(15-ci cild, s. 272)**

Ərlə arvadın eyni bir sahədə çalışması, üstəlik, onların eyni baxışlara malik olması xoşbəxtlikdir.

**(16-cı cild, s. 49)**

Orduda xidmət etmək kimi çətin yolu keçənlər gələcək həyatlarında hər bir çətinliyin öhdəsindən gəlməyəqadir olurlar.

**(16-cı cild, s. 95)**

Əgər xalq azad, sərbəst yaşamaq istəyirsə, ölkəsinin, torpaqlarının toxunulmazlığını arzu edirsə, gərək hər şeydən öncə orduya qayğı göstərsin.

**(16-cı cild, s. 94)**

Cinayətkarı bağışlamaq olmaz. Ancaq kim-isə, hardasa - əgər günahını başa düşübsə əfv etmək olar.

**(16-cı cild, s. 123)**





İnsan haqları bizi insaniləşdirən mənbədir.

**(16-cı cild, s. 267)**

İnsan haqları insan mövcudluğunun və birgə yaşayışının bünövrəsi olmaqla heç bir mədəniyyətə yad deyil və bütün millətlərə xasdır.

**(16-cı cild, s. 267)**

## V Bölüm

## Qanun, ədalət, müharibə və sülh haqqında

İnsan hüquqlarını kütləvi şəkildə pozan başlıca amil müharibədir.

**(12-ci cild, s. 147)**

Müharibələr nəticəsində insanların ən əsas hüququ – yaşama hüququ pozulur, onların yaşadıqları yerlər dağıdılır, mədəni sərvətlər məhv olunur, ailə üzvləri arasında əlaqələr kəsilir, insanlar öz yurdlarından didərgin düşür və böyük faciələrə düçar olur. Bütün bunlara bəraət qazandıra bilən heç bir səbəb yoxdur və ola da bilməz.

**(12-ci cild, s. 147)**

Sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil.

**(12-ci cild, s. 147)**

Sülh həmçinin elə bir şəraitdir ki, bütün insanlar zorakılıqdan və qorxudan azad yaşayırlar.

**(12-ci cild, s. 147)**

Beynəlxalq aspektdə sülh bir tərəfdən dövlətlər arasında müharibələrin olmaması, digər





tərəfdən isə xalqlar arasında qarşılıqlı hörmətə, etibara əsaslanan münasibətlərin mövcudluğu deməkdir. Daxili aspektdə isə sülh məfhumu "vətəndaş sülhü" mənasını daşıyır ki, bu da vətəndaşların öz aralarında və vətəndaşlarla dövlət hakimiyyəti arasında münasibətləri ehtiva edir.

**(12-ci cild, s. 148)**

Yaxşı məlumdur ki, müharibənin əsas səbəblərindən biri insanlar və xalqlar arasında dözümsüzlük şəraitidir. Dözümsüzlük isə insanı zorakılığa vadar edə bilər.

**(12-ci cild, s. 149)**

İnsan dövlətdə, cəmiyyətdə nə qədər yüksək vəzifə, səlahiyyət alırsa, o qədər də çox qanunun tələblərini həyata keçirməlidir.

Qanuna riayət, hörmət etməlidir. Qanunun aliliyini təmin etməlidir.

**(15-ci cild, s. 124)**

Xalqlarımızın səadət və tərəqqisi üçün ən mühüm şərtlərdən biri sülh, təhlükəsizlik və sabitlikdir.

**(16-cı cild, s. 15)**

Polis əməkdaşı yalnız və yalnız qanun çərçivəsində fəaliyyət göstərməlidir. Qanunun

aliliyini daim rəhbər tutmalıdır, qanuna həmişə hörmət etməlidir.

**(16-cı cild, s. 173)**

O şeyə ki, qanun yol vermir, qadağan edir, onu etməyin. Eyni zamanda o vəzifələr ki, sizin üzərinizə düşür, qanunun həyata keçirilməsinə kömək etmək, - onu edin. Səmimiyyətlə, ürəkdən, anlayaraq edin.

**(16-cı cild, s. 246)**

Sülh olmadan insan hüquqlarına tam riayət olunması mümkün deyil.

**(16-cı cild, s. 266)**

Sülh elə bir şəraitdir ki, bütün insanlar zorakılıqdan, qorxudan azad yaşayırlar və onların təhlükəsiz yaşamaq hüququ təmin edilir.

**(16-cı cild, s. 266)**





## VI Bölüm

### Bilik, zəhmət və iş haqqında

Məktəb elə bir prosesdir, orqanizmdir ki, burada hamı – şagird də, tələbə də, müəllim də, bütün kollektiv də inkişafdadır.

**(12-ci cild, s. 141)**

İnsanlar həyatda təhsillə, işlə, təcrübəylə çox şeyə nail olurlar. Amma insanın kökündə, əsasında, anadangəlmə, Allahdan böyük fitri-istedad verilməyibsə, həyatda əldə etdiyi nailiyyətlə şübhəsiz ki, uğurlu olar, ancaq o qədər də parlaq ola bilməz.

**(15-ci cild, s. 313)**

İnsan öz təhsili, zəhməti, əməyi, işi ilə istedadını inkişaf etdirirsə, daha da parladar və genişləndirirsə, onda belə insan böyük şəxsiyyət olur.

**(15-ci cild, s. 313)**

Heç nə bir yerdə donub qalmır, hər şey inkişafda, hərəkətdədir.

**(15-ci cild, s. 334)**

Orduda xidmət edən hər bir gənc mətinləşir, bərkiyir.

**(16-cı cild, s. 95)**

Hər bir kəs öz tərbiyəsinin, öz mədəniyyətinin səviyyəsinə uyğun olaraq hərəkət edir.

**(16-cı cild, s. 207)**

Hər bir insanın həyatının məqsədi insanın özü tərəfindən müəyyən edilir. Lakin bununla yanaşı müəyyən ümumi meyarlar da var.

**(16-cı cild, s. 217)**

Kütləvi informasiya vasitələri demokratiya və aşkarlığın mühüm vasitəsidir.

**(16-cı cild, s. 275)**





## VII Bölüm

### Təbiət, cəmiyyət və həyat haqqında

Bizim kommunizm rejimi dövründə belə bir eybəcər qayda var idi – kimsə yüksək vəzifədən getdikdə o, cəmiyyətdən və hamıdan təcrid edilirdi, az qala xalq düşməninə çevrilirdi və onu gözümçıxdıya salmağa başlayırdılar. Bu hallar mənim də başıma gəldi.

**(12-ci cild, s. 78)**

Əgər hansısa bir ölkədə, kimsə hakimiyyəti ələ alırsa, yaxud onu seçirlərsə, deməli, o, xalqın qarşısında məsuliyyət daşıyır. Məsuliyyətini axıra qədər daşımalıdır.

**(12-ci cild, s. 78)**

Canını qurtarıb qaçmaq böyük bir qəhrəmanlıq deyil, qorxaqlıqdır. Hakimiyyətdə olan adam gərək heç vaxt canı haqqında düşünməsin, xalq haqqında düşünsün və əgər lazım olsa özünü xalqın yolunda şəhid etsin, qurban versin.

**(12-ci cild, s. 78)**

İnsanın həyatında heç bir çətinlik daimi olmur. Sadəcə olaraq insan bu çətinliyə dözməlidir və buna qarşı mübarizə aparmalıdır.

**(12-ci cild, s. 118)**

Əgər müxalifət normal olarsa bu, cəmiyyətin xeyrinədir, iqtidarın da xeyrinədir.

**(12-ci cild, s. 302)**

İnsan hər bir əyri yola gedirsə, o əyri yoldan çəkinmək çətin olur. Bəzən deyirlər ki, insan nəyə görə alkoqolik olur? Hər bir alkoqolik anadangəlmə belə olmur ki! O, bir dəfə az içir, sonra yavaş-yavaş içkini artırır, nəhayət, onun orqanizmi tələb edir və içkidən əl çəkə bilmir. İnsanlar mənəviyyatca belə pozulurlar. Biri pozulub alkoqolik olur, biri narkoman olur, biri rüşvətxor olur, ondan əl çəkə bilmir. . . sonra da nəzarəti itirir.

**(15-ci cild, s. 17)**

İnsan özü özünü ləkələyəndə özünə zərər vurur.

**(15-ci cild, s. 20)**

Diplomat deyəndə adamın gözünün qabağına nə gəlir? Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə cəmiyyətdə özünü aparmağı ilə fərqlənən insanlar.

**(15-ci cild, s. 24)**

Ana cəmiyyətimizə zəkalı, istedadlı insanlar böyüdür, bəxş edir.

**(15-ci cild, s. 40)**





Cəmiyyətdə anaya münasibəti daim yüksəltmək qadına hörmətdir.

**(15-ci cild, s. 40)**

Ümumiyyətlə, vətənpərvər, mərd insan əgər şüurlu, ya şüursuz hansısa bir cinayəti edibsə, o, vətənindən qaçmamalıdır. Cinayət edib vətənindən qaçan adam xalq, millət, cəmiyyət üçün ən yaramaz və ən nüfuzsuz bir adamdır.

**(15-ci cild, s. 116)**

## VIII Bölüm

### Sahibkarlıq və iqtisadiyyat haqqında

Əcnəbi sərmayədar əvvəla, fayda, ikincisi isə ictimai sabitlik olan yerə gedir.

**(12-cü cild, s. 77)**

Hər bir sərginin məqsədi malları, eksponatları nümayiş etdirməklə yanaşı yeni iqtisadi əlaqələr qurmaqdan və iqtisadiyyatı inkişaf etdirməkdən ibarət olmalıdır.

**(12-ci cild, s. 153)**

Yeni kommunikasiya sistemləri dünya bazarlarını təbii sərvətlərimiz üçün açacaq, xalqlarımızın firavanlığının artmasını təmin edəcək, onların təhlükəsizliyi və tərəqqisi üçün möhkəm zəmin yaradacaq.

**(16-cı cild, s. 14)**

Bizim ölkəmiz açıqdır, sərmayəçilər olduqca çoxdur, ticarət tam sərbəstdir.

**(16-cı cild, s. 197)**

İqtisadiyyat sahəsində çox mühüm istiqamətlərdən biri xarici investisiyaların Azərbaycana cəlb olunmasıdır.

**(16-cı cild, s. 196)**





## IX Bölüm

### Din, vicdan və düşüncə haqqında

Müstəqillik ümumi bir məfhumdur. Amma müstəqillik təkcə dövlətin, millətin müstəqilliyi deyil, həm də hər bir insanın, vətəndaşın sərbəstliyidir, azadlığıdır və müstəqilliyidir.

**(12-ci cild, s. 119)**

Əgər ideya gerçəkliyə uyğun gəlmirsə, bu hələ o demək deyil ki, ideya düzgün deyil.

**(12-ci cild, s. 149)**

İnsan özününkünü heç vaxt qiymətləndirə bilmir.

**(12-ci cild, s. 359)**

Adam yolunu azanda, əyri yola düşəndə lap quyunun dibinə gedir.

**(15-ci cild, s. 19)**

İnsan çirkli işə girəndə oradan çıxmaq onun üçün çətin olur, əksinə, sübut etmək istəyir ki, o doğrudur.

**(15-ci cild, s. 21)**

Hər birimiz anaya borcluyuq və hər bir qadın ana olmaqla xoşbəxt olur.

**(15-ci cild, s. 40)**

İnsanın həyatında vəziyyət cürbəcür ola bilər – çətinliklər də, məhdudiyyətlər də ola bilər.

**(15-ci cild, s. 40)**

Gözəllik anlayışını insanlar cürbəcür anlayırlar, dərk edirlər. Bu da təbiidir. Təbiətin də gözəlliyi vardır, hər bir insanın da gözəlliyi vardır. Amma əsl mənada cəmiyyətdə olan gözəllikdir.

**(15-ci cild, s. 44)**

Adamları insan, vətəndaş edən, insanları yüksək mədəniyyətə qaldıran amillərdən biri də bizim mədəniyyətimizdir, ədəbiyyatımızdır, şerimizdir.

**(15-ci cild, s. 98)**

Əgər sən şüurlu surətdə cinayət edirsənsə bil ki, bu cinayətə görə məsuliyyət daşımalısan.

**(15-ci cild, s. 116)**

Qurban bayramı sadəcə şənlənmək, yaxud da qurban kəsmək, bir-birini təbrik etmək günü deyildir. Bu gün insan həyatını yenidən düşünür, yenidən mənəviyyata qayıdır, mənəvi dəyərlərin qiymətini yenidən dərk edir və insan daha da saflaşır, paklaşır.

**(15-ci cild, s. 167)**





Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyədə təbiyə etməkdən ibarətdir.

**(15-ci cild, s. 170)**

Allah hər bir adama bir qismət verir. Biri görürsən istedadlı olur, biri yazıçılıqla məşğul olur, biri bəstəkarlıq edir, biri başqa sənəti seçir, biri alimlik edir. Allah mənə də bu işi qismət edib, yəni xalqın qayğısına qalmaq.

**(15-ci cild, s. 173)**

Kim öz xalqına sədaqətlə xidmət edirsə, Allah onu qoruyur.

**(15-ci cild, s. 290)**

Xalqların sülh istəyi, xalqların dostluq arzusu və xalqların əməkdaşlıq etmək iradəsi olduqda müxtəlif dinlərə mənsubiyyətin heç bir əhəmiyyəti yoxdur.

**(15-ci cild, s. 293)**

İnsan anadangəlmə fitri-istedada malikdirsə, Allah ona nadir fitri-istedad veribsə onsuz da parlayacaqdır.

**(15-ci cild, s. 313)**

İslam dininin dəyərləri ən yüksək mahiy-

yətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanları bu uca, ülvi, yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə etmək Allahın buyruğudur, Məhəmməd Peyğəmbərin qoyduğu yoldur.

**(16-cı cild, s. 230)**





## X Bölüm

## Arzu, istək və maraq haqqında

İnsanlar həmişə qaranlıqdan işığa çıxmağa çalışırlar. İnsanlar həmişə günəşin çıxmasının həsrətində olurlar.

**(12-ci cild, s. 110)**

Müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir.

**(12-ci cild, s. 113)**

Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır.

**(12-ci cild, s. 113)**

Yaxşı bir şey əldə etmək üçün hər hansı itkilərə razılşmaq lazımdır.

**(12-ci cild, s. 223)**

Birlik səmərəli, iş qabiliyyətli, demokratik və çevik olmalıdır.

**(12-ci cild, s. 372)**

İstedadlı, bacarıqlı, dəyərli kadrları qorumaq lazımdır, onlara kömək etmək lazımdır, onları irəli çəkmək lazımdır.

**(15-ci cild, s. 33)**

Anaya hörmət, hər insanın həyatda Ana qarşısında borcunu yerinə yetirməsi onun ali vəzifəsi olmalıdır.

**(15-ci cild, s. 40)**

Ana ailənin dayağıdır.

**(15-ci cild, s. 40)**

Gözəllik həm xarici olur, həm də daxili olur. Ancaq bu gözəllik anlayışının daşıyıcısı həmişə qadınlar olur.

**(15-ci cild, s. 44)**

Qadın zərif bir məfhumdur. Biz qadını sevməliyik, qadına hörmət etməliyik, qadını həmişə yüksək tutmalıyıq və qadının cəmiyyətdə rolunu daim yüksəltməliyik.

**(15-ci cild, s. 45)**

Bu dünyaya gələn hər bir adam bu dünyadan gedəcəkdir. Ancaq xoşbəxt o kəsdir ki, dünyada böyük iz qoyur.

**(15-ci cild, s. 102)**

İnsanlar, cəmiyyət, xalq cinayətkarlardan qorunmalıdır.

**(15-ci cild, s. 116)**

Dövlət işi yaxud da siyasət – bunlar hamısı





birlikdə elə bir şeydir ki, əgər həqiqətən insan özünü belə bir peşəyə, işə həsr edirsə bunlar bir peşə kimi insanın özünü yaşatmaq məqsədi daşımır.

Deməк əgər sən böyük dövlət işinə, böyük siyasətə girişirsənsə, bundan öz şəxsi məqsədin üçün istifadə edəcəksənsə bu nəticəsiz qalacaqdır. Amma bu addımı xalqa xidmət etmək, xalqın qeydinə qalmaq, xalqa qayğı göstərmək üçün, vətənin problemləri üçün atırsansa onda şübhəsiz müvəffəq ola bilərsən.

**(15-ci cild, s. 173)**

Bir çox adamlar var, heç fikirləşmir ki, bu suyun dərinliyi nədir, üzə biləcək ya bilməyəcək.

**(15-ci cild, s. 179)**

Mənəvi cəhətdən sağlam olmayan adam böyük dövlət işi ilə məşğul ola bilməz.

**(15-ci cild, s. 181)**

Şair olmaq asan deyil, təkcə bizim xalqın tarixində yox, bütün dünya xalqlarının tarixində şairlər, yazıçılar, alimlər adətən kişilərdən olubdur. Ancaq qadınlardan olan şairlər xüsusi hörmətə malikdirlər. Onlar gərək nə qədər yüksək istedada malik olsunlar ki, kişilərlə bərabər səviyyədə bəlkə onlardan da üstün səviyyəyə qalxaraq, şeirlər yazaraq böyük şair-

lər dəstəsinə qoşula bilsinlər.

**(15-ci cild, s. 229)**

Mən bütün işləri inanaraq edirəm. İnanmadığım şeyə qətiyyən qatılmıram.

**(15-ci cild, s. 277)**

Şər nə qədər zərər vursa da, xeyir əvvəl-axır qalib gəlir.

**(15-ci cild, s. 291)**

Naxçıvandakı kimi dağlara və "İlanlı dağ" kimi dağa şəxsən mən rast gəlməmişəm. Bəlkə də daha maraqlı, daha gözəl digər dağlar var, lakin bu dağ özünəməxsusluğu ilə fərqlənir, belə dağı təbiətin özü yaradıbdır. Maraqlıdır ki, günün müxtəlif vaxtlarında, günəşin şüalarından asılı olaraq bu dağın rəngi köklü surətdə dəyişir. Bu nə isə nadir bir haldır.

**(15-ci cild, s. 339)**

İnsan həyatı boyu öz yaşayış yerini, öz iş yerini dəyişir. Bu, istənilən adam üçün təbii haldır. Az insan tapılar ki, onlar doğulduqları yerlərdə bütün ömürləri boyu qalsınlar.

**(16-cı cild, s. 44)**

Bizim hamımızı incidən və yaralarımızı sızıldadan verdiyimiz şəhidlərdir.

**(16-cı cild, s. 114)**





Hər bir adamın öz subyektiv hisslərini ifadə etməyə haqqı var.

**(16-cı cild, s. 208)**

Mən hamıya deyirəm əgər siz məni həqiqətən belə qiymətləndirirsinizsə və adımı əbədiləşdirmək istəyirsinizsə, bacarsanız bunu mən dünyamı dəyişəndən sonra edin.

**(16-cı cild, s. 221)**

O şeyi ki, etmək olmaz, onu etməyin.

**(16-cı cild, s. 246)**

Keçmişin bizim üçün, bugünümüz, gələcəyimiz üçün faydalı təcrübəsindən istifadə etməliyik. Amma bugünün tələblərinə uyğun olmayan, ona zidd olan və bugünkü işimizə zərər gətirən keçmişin təcrübələrindən imtina etməliyik, onların bugün təkrar olunmasına yol verməməliyik.

**(16-cı cild, s. 247)**

Mən cürbəcür proqnozların həyata keçməməsinin dəfələrlə şahidi olmuşam.

**(16-cı cild, s. 289)**

Qadın üçün gözəllik çox vacibdir.

**(15-ci cild, s. 423)**

Nəsib Abid

# HEYDƏR ƏLİYEVİN
*müdrik kəlamlarından*

**Söz, Düşüncə, Fikir Dünyası və Tövsiyələri**

İMZA
NƏŞRLƏR EVİ

**Direktor:** Səbuhi Aslan

**Dizayner:** Səbinə Hüseynzadə

**Texniki redaktor:** Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 09.05.2025
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru



Nəsib Hüseyn oğlu Abid (Həsənli)

6 iyun 1959-cu ildə, Yardımlı rayonun Abidinli kəndində anadan olub.

İlk təhsilini doğulduğu Abidinli kənd ibtidai məktəbində, orta təhsilini 1975-ci ildə Cerinbel və Şəfəqli kəndlərində tamamlamışdır.

1976 - 1980-ci illərdə Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil almışdır. Nəsib Abid universiteti fərqlənmə diplomu ilə bitirərək, doğma kəndinə qayıtmış və fasiləsiz olaraq 43 il, (1980-2023-cü illərdə) pedaqoji fəaliyyətlə məşğul olmuşdur .

Nəsib Abidin ədəbi yazıları, müxtəlif qəzet və jurnallarda mütəmadi olaraq çap olunub .

"Əsrimizin şairləri, Ədəbi Düşüncələr" kitabı, müəllifin son illərdə yazdığı müstəqil ədəbi-portret yazılarıdır. Bu yazılar çağdaş poeziyamızın ideya istiqamətini işıqlandırmağa xidmət edir.

Nəsib Abid hazırda təqaüddədir.

İMZA

9 789952 372304